# "Üzeyir Hacıbəyovun əziyyətini necə yerə vura bilərik?!" - "Günahdır"

**"Bu gün (dünən-red.) Üzeyir bəyin doğum günüdür. Onun adı ilə bağlı həm də musiqi günüdür. Çox istərdim ki, Tofiq Quliyevin adı ilə bağlı mahnı günü də olsun, 7 noyabr tarixi mahnı günü kimi qeyd edilsin".**

Bu sözləri Adalet.az saytına açıqlamasında Əməkdar incəsənət xadimi Nailə xanım Mirməmmədli söyləyib:

"Bizim çoxlu gözəl ifaçılarımız, musiqiçilərimiz, bəstəkarlarımız olub. Şövkət xanım Ələkbərovanın özü elə gözəl musiqilər, klassik mahnılar ifa edib ki. Elə onun doğum günü də əbədiləşdirilsin. Yəni bu günlər tez-tez xatırlansın ki, bəlkə, bu günün xətrinə efirlər mədəniyyətimizi yaxşı istiqamətdə təbliğ edə. O zaman bayağı musiqilərdən də uzaq olarıq. Mən həmişə efirdə də demişəm, gözəl melodiya duya bilən, lakin bayağı olan ifaçılar varsa, mən sağam, onlara nələrisə öyrətməyə hazıram.



Gəlib oxusunlar, öyrənsinlər. Hər zaman səsləndirirəm, dərs dediyim Pedaqoji Universitetə müraciət etsinlər. Bu Universitetdə musiqinin 11 fənnindən dərs keçən müəllimlərimiz var. Gəlib o müəllimlərdən təhsil alıb daha yaxşı musiqi bəstələsinlər. Çox istərdim, bu təbliğatla tək mən deyil, Bəstəkarlar İttifaqı deyil, hamı məşğul olsun. Musiqidə Üzeyir bəyin çox böyük, çox böyük əziyyəti var, çox böyük əziyyəti var. Mən bunu neçə dəfə təkrar-təkrar söyləməkdən yorulmuram. Hər zaman ona rəhmət diləyirəm. Təsəvvür edin, musiqi ladlarını ayrı-ayrı yazıb onları kitab halına salmasaydı, bəlkə də, bizim aciz düşmənlərimiz-ermənilər muğamımızı da özəlləşdirərdilər. 7 əsas muğamı, onların şaxələrini, qollarını necə qələmə alıb?! 12 ilə yaxın bir müddətə kitab yazıb. Üzeyir bəy çox böyük şəxsiyyətdir. Üzeyir bəyin əziyyətini necə yerə vura bilərik!? Bu günahdır. Axır 5-6 ildə necə bayağı mahnılara diqqət göstərə bilərik? Bayağı musiqilərin təsiri altında insan adiləşir. Bizim o qədər gözəl muğamlarımız var ki. Bax onları dinləmək lazımdır".

**Rövşən Tahir**

Ədalət.- 2020.- 19 sentyabr. S. 12.